

سه‌شنبه ۲۵ ربیع الآخر سنه ۱۳۳۷

ایکنجی سنه دوامیه‌سی

۲۸ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۹۹

# آذربایجان

گوندەلگ سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

تورك و اسلاملغه مفید مقاله‌لره صحیفه لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالاتك مکافاتنی اداره تعیین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله کراتله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:

۱ آیلغی ۱۸ روبله
۲ « ۳۲ «
۳ « ۴۵ «

غیر شهرلر ایچون:

۱ آیلغی ۲۰ روبله
۲ « ۳۵ «
۳ « ۵۰ «

محل اداره: باکو، وورونسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۴ نومرولی ایوده «آذربایجان» اداره‌سی، تلفون نمره. ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

انا لله وا نا الیه راجعون

نجفقلی، محمدجواد. عبدالمؤمن وعلی‌عسکر صادقوفلر کمال‌یأس وتحسرله اوز سوگلی دایی‌لاری عبدالحمید سلیمانوفك وقتسیز وفات ایتدیگنی قوم اقربا ودوست آشنالرینه خبر ویریورلر. تشییع جنازه بو گون یانوارك ۲۸ نده ساعت ۱۰ ده قراسنی قره‌ستوفسقی کوچه ده اوز منزلندن شاه مسجدینه آپاریلاجقدر.

2661

انا لله وانا الیه راجعون

محمدجعفر، عبدالعظیم ومطلب سلیمانوفلر کمال یاس وتحسرله سوگلی قرداشلری

عبدالحمید سلیمانوفك

وقتسیز وفات ایتدیگنی قوم اقربا و دوست آشنالرینه خبر ویریورلر. تشییع جنازه بو گون یانوارك ۲۸ نده ساعت ۱۰ ده قراسنو قره‌ستوفسقی کوچه‌ده اوز منزلندن شاه مسجدینه آپاریلاجقدر.

2662

## اعلان

سه‌شنبه گونی ۱۹۱۹ سنه‌سی یانوار آینك ۲۸ نده گوندوز ساعت ۱۲ ده آذربایجان مجلس مبعوثان اجلاسی اولاجاغی اعلان ایدیلیر.

T-17

## سیاسی وضعیتمز

## فائق افندینك حبسی

## آذربایجان مجلس مبعوثاننده

"Azərbaycan" qəzetinin 99-cu nömrəsinin 1-ci səhifəsi

**Çərşənbə axşamı, 28 yanvar 1919-cu il, nömrə 99**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 25 rəbiülaxir sənə 1337. 28 kanuni-sani sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Nəcəfqulu, Məhəmmcavad, Əbdülmümin və Ələsgər Sadıqovlar kamali-yə's və təhəssürlə [böyük bir matəm və kədərlə] öz sevgili dayıları Əbdülhəmid Süleymanovun vaxtsız vəfat etdiyini qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər. Təşyeyi-cənazə [cənazənin yola salınması] bu gün yanvarın 28-ində saat 10-da Krasnokrestovski küçədə öz mənzilindən Şah məscidinə aparılacaqdır.

*2661*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məhəmmədcəfər, Əbdüləzim və Mətləb Süleymanovlar kamali-yə's və təhəssürlə sevgili qardaşları Əbdülhəmid Süleymanovun vaxtsız vəfat etdiyini qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər. Təşyeyi-cənazə bu gün yanvarın 28-ində saat 10-da Krasnokrestovski küçədə öz mənzilindən Şah məscidinə aparılacaqdır.

*2662*

## ELAN

Seşənbə [çərşənbə axşamı] günü 1919 sənəsi yanvar ayının 28-ində gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

*T-17*

## SİYASİ VƏZİYYƏTİMİZ

Getdikcə ingilislərin Qafqaziya cümhuriyyətləri haqqındakı siyasətləri aşkar olur.

General Tomsonun ikinci bəyannaməsini üçüncüsü – Azərbaycan Hökumətinin Azərbaycan ərazisi üzərində yeganə məşru [qanuni] bir hökumət olduğu haqqındakı bəyannanməsi təqib eylədi. Bu kərə də Müttəfiqlərin Şərq orduları komandanı əlahəzrət İngiltərə kralı hökumətinin nümayəndəsi general Miln rəsmi surətdə Azərbaycan Hökumətini tanıdığını bildirmişdir.

General Milnin hökumət rəisi Fətəli xan Xoyski həzrətlərinə vaqe olan bəyanatında Azərbaycan Hökuməti "hökuməti-məhəlliyyə" [yerli hökumət] təbiri ilə deyil, ələlitlaq [ümumiyyətlə] tələffüz olunmuşdur.

General, Fətəli xan Xoyski həzrətlərinə dediyini Tiflisdə dəxi Gürcüstan rəisi-hökuməti Jordaniya həzrətlərinə söyləmişdir. Demək ki, Qafqaziyadakı cümhuriyyətlərin Sülhi-Ümumi Konqresincə qəbuluna İngiltərə Hökuməti səy edəcəkdir.

Səlahiyyətdar ingilis generallarının,

Müttəfiqlər naminə hərəkət edən sahibi-kəlmə [söz sahibi] siyasət ricalının [adamlarının] Qafqaziya məsaili [məsələləri] haqqında söyləmiş olduqları bu sərih bəyanları, heç şübhəsiz ki, Qafqaziya millətlərinin kəndi başlarına təyini-müqəddərat etmələrini istəməyən qızğın qafalı siyasətgərdanlara [siyasətbazlara] soyuq su vəzifəsini görmüşdür.

Fətəli Xan həzrətləri general Miln ilə vaqe olan müsahibəsini Məclisi-Məbusana təbliğ edərkən, məbusan [deputatlar] bunu böyük bir məmnuniyyətlə tələqqi eylədi. Divani-rəyasətə tapşırdı ki, general təkrar şəhərimizə dönərkən fürsətdən istifadə edərək məbusan naminə kəndisinə təşəkkür və məmnuniyyət izhar eyləsin. Məbusanın bu təşəkkürü Azərbaycanın təşəkkürüdür. Bu təşəkkürə istiqlalını göz bəbəyi kimi saxlamaq əzmində olan millət də iştirak eylər.

Müttəfiq dövlət nümayəndələrinin bu surətlə rəftarı, şübhəsiz ki, camaatımıza, camaat xadimlərimizə ruh verəcək, əzm və cəsarətlərinin birə on artmasına səbəb olacaqdır.

İngilis qüvvəsinin tərzi-hərəkətindəki bu sərahət [açıqlıq], paytaxtımızda bulunub da başqa havalar tərənnüm edən bir para rusiyaçı partiyalarla mətbuatın dəxi xətti-hərəkətlərini dəyişməyə səbəb oldu. Sosial-demokrat və sosial-revolyusioner [sosialist-inqilabçı] firqələrinə mənsub olan qəzetələr təğyiri-lisan edərək [ağız dəyişdirərək] Azərbaycan istiqlalına təhəmmüllərindən [dözümlülük nümayiş etdirdiklərindən], Azərbaycan Parlamanına girmək istədiklərindən bəhs etməyə başladılar. Hətta "eser"lər [sosialist-inqilabçılar] Parlamana girmək arzusunda olduqlarını Divani-rəyasətə yazdıqları bir müraciətnamə ilə dəxi bildirdilər.

Sosial-demokratların "İskra" adlı qəzetəsi millətlərin kəndi müqəddəratlarını kəndiləri təyin eyləməyə haqlı olduqları əsasına "hər zaman tərəfdar ola gəldiyindən" bəhs eylədi. Əsas etibarilə Azərbaycanın Rusiya ilə birlikdə qalmasını Azərbaycan demokratiyasının mənafeyinə daha faydalı görürsə də, halhazırda Azərbaycan Hökumətinin bir əmri-vaqe (olmuş bir iş) olduğunu da nəzərə aldığını söylədi. Azərbaycan Rusiya ilə öz meyli və arzusu ilə birləşsin, bu onun faydasıdır – dedi. Yoxsa Azərbaycan buna icbar edilməsin. İcbar edilərsə, bu böyük bir haqsızlıq olar! Bu haqsızlığa isə hər kəsdən ziyadə sosial-demokratlar qarşı qoyarlar – deyə bəyanatda bulundu.

"İskra" daha irəli gedir. Deyir ki, Azərbaycan istiqlalı bu gün onlardan ötrü bir şüardır. Çünki müstəqil Azərbaycanın yaxın bir istiqbalda [gələcəkdə] öz meyli və öz rizası ilə təkrar Rusiya demokratiyası ilə bir muxtariyyət və ya federasyon əsası üzərinə birləşməsi ehtimal daxilindədir. Halbuki müstəqil deyil, xarici bir Avropa dövlətinə mərbut [bağlı] olarsa, o zaman Azərbaycan əbədiyyən Rusiyadan ayrı qalacaqdır.

Demək ki, bu gündən etibarən Azərbaycan istiqlalının müdafeləri [müdafiəçiləri] zümrəsinə bir də sosialist partiləri [partiyaları] daxil olurlar.

Bismillah, daxil olsunlar. Həqiqi sosialist olsalar, bundan başqa rəftar edəmməzlər. Bu rəftara onlar imdi deyil, çoxdan süluk etməliydilər [çoxdan bu yola

gəlməliydilər].

– Heçdənsə gec!..

*M. Ə.*

## FAİQ ƏFƏNDİNİN HƏBSİ

Qafqaziya türkləri miyanında [arasında] maarifin intişarına [yayılmasına] hər kəsdən əvvəl çalışan, Nuxuda, Şamaxıda bir çox zəhəmat və məşaqqa [zəhmətlərə və məşəqqətlərə] köks gərərək zamanın o müzlim [qaranlıq] səhifələrində yeni bir işıq çıxarmağa müvəffəq olan, Axısxa kimi Qafqaziyamızın ən hücra [uzaq] guşəsində milli ruh oyanıqlığına səbəb olan, ən nəhayət "Molla Nəsrəddin" jurnalı kimi xürafatla iftixar edənləri cəmiyyəti-bəşəriyyədən çıxarmağa səbəb olan bir məcmuəni meydana gətirməkdə iştirakla kəndisindən əvvəl gələn bütün məcmuəçilərə faiq [üstün] gələn Faiq əfəndi bu yaxın zamanda siyasət saiqəsi [səbəbi] ilə gürcü hökuməti tərəfindən həbs edilmişdi. Demək, Faiq əfəndi siyasi bir məhbus idi. O, cinayətkar deyildi. Qatil, oğru və sairə deyildi. Qafqaziyadan rus hakimiyyəti qalxdığı, gürcü hakimiyyəti də doğmadığı bir zamanda Axısxa türklərinin irqən qardaşı və hal-hazırda qonşusu bulunan Türkiyə Hökumətinə ümum axısxalıların, bilxassə Faiq əfəndinin hüsn-təvəccöhləri [xoş münasibətləri, rəğbətləri] varmış. Faiq əfəndinin siyasət aləmində olan günahı da bu "hüsn-təvəccöhdən" ibarətdir. Bu hüsn-təvəccöh bütün azərbaycanlıların türklərə, bütün gürcülərin Almaniyaya tərəf çevirdikləri hüsn-təvəccöhdən fərqli deyildir.

Madam ki, vaxtın iqtizası [tələbi] ilə vücuda gələn bu hüsn-təvəccöh hər kəscə məqbul imiş, əlbəttə, yalnız Ömər Faiq əfəndinin hüsn-təvəccöhü qeyri-məqbul ədd [hesab] ediləmməzdi. Ona binaən [əsasən] də bir çox protestolara, etirazlara məruz qalan gürcü hökuməti Faiq əfəndini tərxis etmişdi. Şimdi aldığımız xəbərlərə görə, gürcü hökuməti məzkur [deyilən] siyasət dolayısı ilə yenidən Faiq əfəndini yaxalamış, məhbus etmişdir. Məhbus etməklə qənaət etməyib, vəhşiyanə bir surətdə o zəif, o nəhif [incə] vücuda malik olan bir zatı hər gün məhbusxanada hökumət məmurları döyürmüş. Demək, Faiq əfəndiyə dəlilli, sübutlu bir günah isnad və sübut etməkdən aciz qalan gürcü hökuməti bu surətlə onu məhbusxanada öldürmək istəyir. Binaənileyh [ona görə] mən uca səslə gürcü hökumətinə deyirəm ki, siz Faiq əfəndini təhqir etməyir, bütün Qafqaziya islamlarını döyür və təhqir edirsiniz! Sizin Qafqaziya islamlarını təhqir etmənizə qarşı var qüvvətimlə etiraz edir və bu kimi müstəbidanə hərəkətlərinizdə bilaxirə [sonda] yenə kəndiniz peşman olacağınızı ixtar [xəbərdarlıq] edirəm.

*Muxtar Əfəndizadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 9-uncu iclas

*(keçən nömrədən mabəd)*

**Abdulla bəy Əfəndizadə** - Gəncə və Bakı şəhər idarələrinə füqərayi-kasibənin müalicəsi üçün para buraxılmaq

məsələsinə fraksiyamız zidd deyildir və ola da bilməz. Doğrudan da, şimdiki müalicə ehtiyacı hər yerdə olduğu kimi bu şəhərlərdə də böyük bir miqyasda Hökumətimiz və Parlamanımız tərəfindən qarşılanmalıdır. Bizim rəyimizcə böylə bir lazımlı tədbirə bir an əvvəl girişməli idi.

Hər halda təşəbbüs hökumət tərəfindən deyil, əhali tərəfindən olması bizi xeyli təəccübləndirdi. Ehtiyac məgər yalnız bu iki şəhərdəmidir? Vətənimizin hər yeri xəstəlik fəlakətinə giriftar olmayıbmı? Yüz minlərcə övladi-vətən kəndlərdə, başqa şəhərlərdə müalicəsiz, müavinətsiz [köməksiz] qırılıb bərbad olmayırmı? Millət bu hal ilə məhv olub gedərsə, Hökumət və Parlaman kimilər üçün yaşamalıdır? Nə üçün hökumət hər yerin halından xəbərdar olmur? Əgər biz yalnız bu iki şəhərə kömək verməklə kifayə[t]ləniriksə, bütün bir xəstə vücudun yalnız bir-iki üzvünə müalicə edib, ən ziyadə müalicəyə möhtac üzvlərini buraxmış oluruz. Vətənin canı kəndistandadır. Ehtiyac da orada çoxdur. Heç bir kəndlinin bu gün xəstəsi üçün uzaq şəhərlərdən həkim, dərman gətirməyə imkanı yoxdur; bütün var-yoxunu satarsa, yenə mətləbinə nail olammaz. Məzkur [adı çəkilən] şəhərlərdə həkim, dərman, həm də füqəraya müalicə müavinəti az-çox vardır. Başqa yerlərdə o da yoxdur. Sabiq istibdad dövründə belə hökumət müsri [yoluxucu] xəstəliyin qabağını böyük bir fəaliyyətlə almağa çalışırdı, həm də güclü məsariflər [xərclər] edirdi. Bizim doğma hökumətimiz nə üçün bu anacan bir təşəbbüs etmir?

Bu mülahizələrlə fraksiyamız Gəncə və Bakı şəhərləri istədiyi qərzi [borcu] qəbul etməklə bərabər, hökumətə təklif edir ki, təcili surətdə Parlamana bir layihə təqdim etsin: vətənin hər yerinə müavinət lazımdır; gərək böyük məsariflər olunub məhəllələrə səyyar həkimlər heyəti və müalicə ləvazimatı göndərilsin, lazımi məqamlarda məccani [pulsuz] aşxanalar və müalicəxanalar açılsın. Bu işin təxirə buraxılmağı əsla qəbul edilməyəcəkdir. Millətin parası millətin özünə məsrəf olunmalıdır.

**Ağa Aşurov** - layihənin nə üçün Səhiyyə Nəzarəti vasitəsilə deyil, Daxiliyyə Nəzarəti vasitəsilə daxil olduğuna təəccüblənərək, istənilən pulu buraxmağa razı olmaqla bərabər, qeyd edir ki, şəhərlərə buraxılan pulların istənilən mənfəəti olammayacaqdır. Zira xəstəliyi kökündən qazmaq, geniş miqyasda böyük çarələr görmək lazımdır.

**Yusifbəyli Nəsib bəy** - Hökumət namından [adından] izahat verərək bəyan edir ki:

Natiqlərin dediklərindən böylə anlaşılır ki, guya Hökumət kəndləri unudaraq ancaq şəhərlərə kömək edirmiş. Əlbəttə, bu barədə də Səhiyyə Nəzarəti özü izahat verər, amma şimdi mən bunu demək istəyirəm ki, Hökumət köyləri unutmamışdır və bu gün kəndlər ehtiyacı üçün təxsisat [pul ayrılmasını] istəməyirsə, səbəbi budur ki, hələ Parlaman açılmadan bu məqsəd üçün hökumət ixtiyarında pul vardı. Səhiyyə Nəzarəti köylərdə müsiri xəstəliklərlə mübarizə ehtiyacına öz binagüzarlığında [sərəncamında] bulunan 3-4 milyondan sərf edir və bu yolda ciddi tədbirlər görür və işləyir. Mənə məlumdur ki,

Səhiyyə Nəzarəti köylərdə xəstəliklə mübarizə üçün ciddi tədbirlər görmüşdür. Əzcümlə [o cümlədən] bu xüsusda bir layihə də hazırlamışdır. Nazir kəndlərə göndərmək üçün təbib, feldşer və sairlərindən mütəşəkkil səyyar dəstələr təşkil edir. Bunlar yaxın zamanda köylərə hətta göndəriləcəklərdir. Nəinki yalnız kəndlərə, şəhərlərə də Səhiyyə Nəzarəti tərəfindən ayrıca olaraq pullar sərf edilir və ediləcəkdir. Ancaq şimdi hökumət şəhərlərə yardım üçün məbləğ istəyir. Səbəbi də budur ki, şəhərlər sari [yoluxucu] xəstəliklərlə mübarizə işlərində Nəzarətə kömək edirlər, fəqət pula möhtacdırlar. Ona görə də bizdən borc pul istəyirlər. Buna görədir ki, Hökumət Parlamana müraciətlə para təxsisinə [ayrılmasına] izin istəyir.

**Əhməd Cövdət** - uzun bir nitqində əsas etibarı ilə paranın buraxılması lazım olmaqla bərabər, sari xəstəliklə mübarizə işlərində Hökumətlə bir yerdə camaatın da ciddi çalışmasını lazım görərək, bunun üçün də bu xəstəliklərin qaçqınlardan sirayət etdiyini [yoluxduğunu] göstərir. Hökumətin qaçqınların əhvali-sihhiyyə və sairələrinə [səhiyyə və digər vəziyyətlərinə] diqqət edilmədiyi üçün hökuməti tənqidlə lazımi və ciddi tədbirlər görməsini tövsiyə edir və bildirir ki, bununla böylə, əlbəttə hökumətlə bərabər camaat dəxi çalışmalıdır və əgər bu gün bələdiyyə idarələri çalışır və kəndlər çarəsiz qalırlarsa, bunun da səbəbini kəndlərdə idareyi-məhəlliyyə [yerli idarə] yoxluğunda görərək tələb edir ki, hökumət tezliklə kəndlərdə zemstvo idarələri [yerli özünüidarə qurumları] təşkilinə çalışsın, tainki kəndlilər dəxi öz dərdlərini bilib çarələrini araya bilsinlər. Bir də natiq əfəndi səyyar dəstələrin təşkilini gec hesab edərək "Bunlar indi kəndlərdə olmalı idilər" - deyir.

**Doktor Rəfiyev** məruzəsini müdafiə edir və izahat verir.

Layihə səsə qonularaq eynilə qəbul olunur.

**Bakı Bələdiyyə İdarəsinə 2 200 min rublə təxsisi**

Bundan sonra doktor **Musa bəy Rəfiyev** eyni məqsəd üçün Bakı Bələdiyyə İdarəsinə 2 milyon 200 min rublə təxsisi [ayrılması] haqqında aşağıdakı layiheyi-qanuniyyəni [qanun layihəsini] oxuyur:

Azərbaycan Cümhuriyyəsi Daxiliyyə Nəzarəti

1919 sənə, yanvar 15

Azərbaycan Parlamanına

Bakı Bələdiyyə İdarəsinə faizsiz borc olaraq iki milyon iki yüz min manat verilməsi qanun layihəsi

Əvaxir [son] vaxtlar ənvayi [müxtəlif] xəstəliklər, xüsusən yatalaq xəstəliyi Bakı şəhərində şiddətli bir hal kəsb etmiş, bunun səbəbi mühacirlər cərəyanı olmuşdur. Gərək şəhərin mövcud xəstəxanaları xəstələrin həpsini qəbul etməyə kafi olmadığından onlardan bəziləri ləbaləb dolmuş. Böylə ki, 19-cu xəstəxanada hal-hazırda 600 xəstə üçün yer olduğu halda 700-dən ziyadə xəstə yatmaqdadır. Mixaylovski xəstəxananın halı daha betərdir. Bu vəziyyətdən doğan qələbəlik nəticəsi olaraq xəstəxana doktorları və başqa məmurları kəndisini mühafizə edə bilməyirlər və müsri xəstəliklərə düçar olurlar. Genə həman

qələbəlik nəticəsi olaraq yüzlərcə xəstə xəstəxanaya düşməyib, mənzillərdə tədavisiz [müalicəsiz] qalıb, digərlərini xəstəliyə salırlar və tələf olurlar. Şəhərdə mövcud əsgəri [hərbi] xəstəxanalar da yerlər artırmaqla bir nəticə hasil edəməmişdir. Zira əsgəri xəstəxanalarda yerlər az olduğundan, bir az müddətdə dolmuş. Şəhər İdarəsinin zənnincə bu ağır vəziyyətin çarəsi müsri xəstələr üçün 600 yataqlıq yeni bir xəstəxana açmaqdır. Şəhər İdarəsinin mülahizəsi ilə bu xəstəxananın təşkili üçün 600 min manat lazım olduğu kimi, xəstələrin xərci ilə başqa məsarifə də dörd ay ərzində dörd yüz min manat lazım olacaq. (Nəzərə 19-cu xəstəxananın məsarifi alınır.) May, yaxud iyul aylarında xəstəliyin tamam olmasa da, azalması məlhuz [güman] olunarsa, bu dörd ay ərzində idarənin təsəvvürüncə xəstəxananın bütün məxarici 2 milyon 200 min manata varacaq. Şəhər İdarəsinin təsəvvürüncə öylə böyük xərc, idarənin imkanı xaricindədir. Ələlxüsus Mixaylovski xəstəxanadan başqa 19-cu xəstəxana da şəhərin öhdəsindədir. Bundan qət'i-nəzər edərək [buna baxmayaraq] bilməlidir ki, hal-hazırda yatalaq xəstəliyi öylə xariqüladə bir hal kəsb edib ki, onunla mübarizədə bulunub dəf etmək dövlətə aid olmalıdır. Buna binaən [buna görə] Bələdiyyə İdarəsi 2 yanvar tarixli qərarına istinad edərək, Daxiliyyə Nəzarətindən məzkur məqsəd üçün təcili surətdə iki milyon iki yüz min manat verilməsi rica olunur. Şəhər İdarəsinin rədd etdiyi mülahizatı tamamilə mühiqq [haqlı] və binaənileyh bu xüsusdakı iqdamat [təşəbbüs] şayani-qəbul [qəbul edilməyə layiq] bulunduğundan, Daxiliyyə Nəzarəti aşağıdakı məzkur layiheyi-qanuniyyəni Məclisi-Məbusanın təsdiqinə təqdim eylər:

1) Bakı Şəhər İdarəsinə əmrazi-sariyyə ilə [yoluxucu xəstəliklərlə] mübarizədə bulunması üçün iki milyon iki yüz min rubləlik bir borcun verilməsi.

2) Məzkur şəhər idarəsinin işbu borcu şəhər varidat və məsarifat [gəlir-xərc] dəftərinə qeyd edilərək, hər sənə müsavi [bərabər] hissələrlə üç sənə zərfində Xəzineyi-dövlətə verilməsi üçün kəndisini müvəzzəf qılmaq [məsul tutmaq].

*Daxiliyyə naziri*
*İdarə müdiri*
*3-cü şöbə müdiri*

Bir qədər müzakirədən sonra bu layihə dəxi qəbul olunur.

**Ədəmi-ictima**

Bundan sonra "Müsavat" fraksiyonu tərəfindən idxal edilib də, Parlaman komisyonunda baxılmış olan aşağıdakı ədəmi-ictima [eyni vaxta bir neçə vəzifə daşımamaq] qanun layihəsi təqdim olunur. Məruzəçi Məhəmməd Əmin Rəsulzadə idi.

Məbusluqla məmurluq ictiması haqqında layiheyi-qanuniyyə

Qüvveyi-qanuniyyə [qanunverici hakimiyyət] ilə qüvveyi-icraiyyə [icraedici hakimiyyət] və ədliyyənin [məhkəmə hakimiyyətinin] biri-birindən kamilən ayrı və müstəqil olması cumhuriyyət idarə əsaslarından olmaq həsəbi [səbəbi] ilə məbusluq vəzifəsi ilə məmuriyyət vəzifələrinin bir şəxsdə ictiması [cəmləşməsi] qabil olmadığından, Azərbaycan Məclisi-

Məbusanı aşağıdakı məvaddı [maddələri] qəbul eyləmişdir:

1) Məclisi-Məbusan əzalığı [üzvlüyü] ilə hökumət məmurluğu bir zat öhdəsində ictima edəmməz. Fəqət, nazirlərdən intixab olunanların [seçilənlərin] əzalığı caizdir. Sair məmurlardan biri məbusluğa intixab olunmuşsa və ya intixab olunarsa, qəbul edib-etməmək öz ixtiyarındadır. Fəqət qəbul etdiyi halda, məmurluğundan ayrılır.

Qeyd:

A) İdarə xidmətini ifa etməyən məktəb müəllimləri ilə professorlar, öylə də ixtisas iqtiza edən [lazım gələn] məsələlərdə əhli-xibrəlik sifəti ilə [məsləhətçi mütəxəssis kimi] dövlət müəssisələri nəzdində bulunan şəxslər yuxarıdakı məmnuiyyətdən [qadağandan] istisna təşkil edirlər.

B) Bu istisna yalnız Məclisi-Məbusanın bulunduğu məhəldə [yerdə] ifayi-vəzifə edən şəxslərə aiddir.

2) Məclisi-Məbusan əzası nazir mövqeyində bulunduqları müddətcə maaşlarını yalnız nazirlər heyəti təxsisatından alarlar.

3) Bu qanun nəşr edilən gündən etibarən məriyyülicradır [qüvvədədir].

4) Bu qanunun nəşrindən etibarən dövlət xidmətində bulunan məbuslar Bakıda isə üç gün, xaricdə isələr on gündən sonra bulunduqları xidmətdən istefaları haqqında Məclisi-Məbusan Divani-riyasətinə ərzi-bəyanda bulunmasalar, məmuriyyəti tərcih eyləmiş kimi tələqqi [qəbul] və məbusluqdan ayrılmış əₚdd [hesab] olunurlar.

Layihə bir qədər mübahisəyə bais olur. Rəsulzadə cənabları müdafiə edirlər. Nəhayət, maddəbəmaddə bir yerdə səsə qonularaq əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.

**Məsai Nəzarəti təşkilatı**

Növbədə Məsai Nəzarəti [Əmək Nazirliyi] təşkilatı haqqındakı qanun layihəsidir. Məruzəçi sifəti ilə Musa bəy Rəfiyev çıxır və aşağıdakı layiheyi-qanuniyyəni[n] Maliyyə komisyonu tərəfindən təqdim və təsdiqini təklif edir:

Məsai Nəzarəti təşkili haqqında layiheyi-qanuniyyə

Məsai Nəzarətinin dəftərxanasında bulunacaq xidmətçilərin müvəqqəti layihəsinə aid sənət və zəhmət qanunnaməsinin şərtlərinə görə (Rusiya qanunnaməsinin 11-inci cildi ikinci hissə 1913 sənənin mətbusu [çapı]) bütün fəhlə və sənət işlərinin idarələnməsi və saxlanılması, həm də iş verənlərlə fəhlələr arasındakı münasibatın üzərindəki nəzarət işləri büsbütün Rusiya Hökumətinin Ticarət və Sənaət Nəzarətinin Fəhlə və sənət şöbəsində toplanmışdı.

Bundan əlavə, məzkur [adı çəkilən] Vüzəratın [Nazirliyin] mərkəzi denilən müəssisələri – ki fəhlə məsələlərinə dair işlərlə məşğul idilər – bunlar idi:

1) Birinci və Baş idarə fabrika və mə'dəniyyat [mədənçilik] işləri müəssisəsi idi, ki həmin bu müəssisənin öhdəsinə fabrikalarda və mə'dəniyyat dairələrində qullanılacaq qanunnamələrin vəz'ini [qanunların qoyulmasını] və qaydalı surətdə icra edilməsini buraxmışdılar.

2) Fəhlələrin sığortası üçün qurulmuş şura idi ki, 1913 sənədə təsis edilib, fəhlələri xəstə[lik] vəqəsindən, yaxud bədbəxtanə hadisələrdən sığorta və tə-

min edirdi. Ticarət və Sənaət Nəzarətinin məhəlli [yerli] təşkilatı isə Fabriçni İnspeksiyadan [Fabrik Müfəttişliyi] və məhəlli fabrik və mə'dəniyyat işlərinə baxan, həm də fəhlələri sığorta edən quberniya müəssisəsindən ibarət bir idarə idi.

Burada gərək diqqətə alınsın ki, yuxarıda adlandırdığımız fəhlə və zəhmət mühafizəsinə qurulmuş müəssisələr birbirindən bu halda asılı idilər ki, hərgah mərkəzi müəssisə bir səbəbdən dolayı işdən qalsaydı, eyni zamanda hamı kiçik müəssisənin də işdən qalmasına bais olurdu. Həmçinin fəhlə sığortasına təsis edilmiş şura, fəaliyyətindən qalsaydı, dərhal adi sığorta müəssisəsinin işləməyi qeyri-mümkün idi.

Hal-hazırda Azərbaycan Cümhuriyyəti daxilində təsis edilməkdə olan Məsai Nəzarətində bütün fəhlə və sənət mühafizəsinə lüzum görülən mühafizə və nəzarət işləri həmin Nəzarətdə [Nazirlikdə] toplansın və get-gedə fəaliyyət və nəzarətini böyüdüb, axırda bütün fəhlə və zəhmətkeş dairələrini bittamam [tamamilə] əhatə edəcəkdir.

Şübhəsiz ki, fəhlə və zəhmət mühafizəsinə təsis olunan Məsai Nəzarətində sabiq Ticarət və Sənaət Nəzarətinin də həman mərkəzi və məhəlli müəssisələri daxil olmalıdır. Fəqət məzkur müəssisələrin əski qanunnamələri bu halda buranın iqtisadi və məmləkəti əhvalına, həm də hüquqları tanınmış kütlə arasında təshih və baxılmamış icra etmək imkan xaricindədir.

Bə-əlavə [əlavə olaraq] sabiqki fəhlə və zəhmət mühafizəsinin müəssisələri qanunnamələrinin baxılmasına, daha bundan aşkardır ki, bu müəssisələrin qanunnamələri 1917-inci sənənin fevral hadisəsindən sonra dəyişməmiş, öz qanuni gücündə baqi qalmışdır. Bu cəhətdən naşi [ötrü], bu müəssisələrin mövcud təlimatları, konstruksiyaları hazırkı məişət və zindəganlıq [yaşayış] şəraitinə müğayir [zidd], həm də hüququnu düşünənlərə qeyri-müvafiqdir. Həmçinin o qanunnamələrin çoxu fəhlə iqtisadi təşkilatı tərəfindən baxılmaz qalmışdır.

Yuxarıdakı əhvallardan naşi, Məsai Nəzarətinin qanunnaməsi həm də onun sair müəssisə və təşkilatlarının qanunnamələri ki orada daxil olacaqlardır; bə-əlavə idarəsinin ştat siyahısı ancaq fəhlə məsələləri üzərində veriləcək əhəmiyyət və diqqətdən sonra hazırlanar. Məsai Nəzarətinin hazırdakı davamı isə hələlik yalnız mövcud olan Fabriçni İnspeksiya ilədir və fəhlə məsələsinə ətraflıca baxılmağa xüsusi şuranın təsisinə başlanmışdır və yeni müəssisənin isə layihəsi qanun qoyan məclisin baxılmasına verilib ki, təsdiqindən sonra dərhal fəhlə və zəhmətkeşlərin mühafizəsinə lüzum görüləcəyi tədbirləri və materialları hazırlansın.

Bilaxərə [sonra], Məsai Nəzarətinin öz iradəsidir ki, kəndi tərəfindən gərək sair müəssisə və idarələrlə əlaqədə bulunsun və bunun üçün də dəftərxanası təsis edilib də işə salınsın. Bu səbəbdən layihəsi (ştat siyahısı) bununla bərabər təqdim edilir.

Müvəqqəti dəftərxana ştatı (Məsai Nəzarəti üçün əlahiddə qanunnamə buraxılana qədər) sair Nəzarətlərin ştatına müvaifq təşkil edilir. Bunlara verilən

aylıq maaş yenə başqa Nəzarətlərdə verilən maaşa bərabərdir. Bə-əlavə sair nəzarətlərin dəftərxana xərcləri və təchizat xərcləri kimi, bu Nəzarətin də olacağı mühəqqəqdir [şübhəsizdir]. Bu xərclərdən savayı xüsusi fəhlə məsələsi şurasının üzvlərinə veriləcək 60000 manatlıq mükafatdır ki, hər dəfə şurada iştirak etmiş üzvə 50 manatdan olaraq veriləcək və bu məbləği də Məsai naziri özü qət edəcəkdir.

*Məsai naziri: Aslan Səfikürdlü*

Layihə bir qədər müzakirata bais olur. Xüsusən Nəzarət nəzdində şura təsisi şiddətli mübahisəni mövcib olur [mübahisəyə səbəb olur]. Nəhayət şura haqqındakı qismə ayrıca baxılmaq şərti ilə layihənin yerdə qalan maddələri qəbul olunur.

**Rəisi-vükəlanın bəyanatı**

Bundan sonra Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətləri söz alaraq Balkan yarımadası və Qafqaziyada Müttəfiqlər qoşunları baş komandanı və İngiltərə kralının nümayəndəsi olan ser Corc Miln ilə mülaqatı [danışığı] haqqında məlumat verərək bəyan edirlər ki:

Görüşdüyümüz zaman general Miln Azərbaycan tərəfindən gördüyü hüsn-istiqbal [xoş qarşılanma] və ehtiramdan pək razı qalmış və təşəkkür etdi. Azərbaycanın hal və övzasından [vəziyyətindən] çox razı qaldığını bildirərək, hətta Azərbaycandan heç böylə şey gözləmədiyini bildirdi.

Müsahibənin ibtidasında [əvvəlində], şübhəsiz ki, birinci məsələ olaraq Azərbaycanın istiqlaliyyətindən danışdıq. General bəyan etdi ki, İngiltərə Hökuməti Azərbaycan Cümhuriyyəti Hökumətini tanıyır və bundan başqa bir hökumət tanımayacaqdır. (Şiddətli alqış) Onların rəyincə Azərbaycan Hökumətindən başqa hökumət ola bilməz, olmayacaqdır da. Biz həmişə bu hökumətə kömək edəcəyiz. Müttəfiqlər qoşunu komandanı general Tomsona və sair idarələrə də bu məzmunda əmrlər verilmişdir.

İkinci məsələ, İngiltərənin ümumiyyətlə xırda millətlərin hüquq və arzularına nə nöqteyi-nəzərdə olmalarına aid idi. Bu xüsusdakı sualıma cavabən general bəyan etdi ki, İngiltərə Hökuməti bu rəydədir ki, kiçik millətlərin özlərini müstəqillən idarə etməyə, xırda millətlərə təyini-müqəddarat ixtiyarı verilməsini müdafiə edəcəkdir. (Alqış) Ona görə inanıram ki, bu məsələdə siz dəxi öz amal və arzunuza nail olacaqsınız.

Üçüncü məsələ, İngiltərə və Müttəfiq qoşunlarının Qafqaziyaya nə məqsədlə gəldiklərinə aid idi. Bu barədə general böylə bəyanat verdi: Mən sizi qəti surətdə inandırıram ki, biz sizin daxili işlərinizə əsla qarışmaq fikrində deyiliz. Əgər bəzi vaxt bir adam müdaxilə edirsə, bu da yek-digərini [bir-birini] anlamamaqdan, yaxud bu və ya o məmurun kəndi vəzifəsini bilməməsindən nəşət edir [irəli gəlir]. Böylə təsadüflər barəsində məlumat olsa, bu kimi hərəkətlər kökündən kəsilər. Bizim Qafqaziyaya gəlməkdən məqsədimiz asayiş və müsaliməti [əmin-amanlığı] paydar [bərqərar] etməkdir. Yenə təkrar deyirəm, sizin daxili işlərinizə əsla qarışmayacağız.

Bundan əlavə, sair məsələlər haqqında da müsahibəmiz oldu; fəqət, hə-

ləlik bu barədə məlumat verməyi lazım görmürəm. Ancaq bunu deyirəm ki, generalın bizə qarşı bir xeyirxahlıq, razılıq və gələcəyimizə, tərəqqimizə ümid bəslədiyi görülməkdə idi. General Tazəşəhərə gedəcəyini bəyanla, qayıtdıqdan sonra yenə görüşəcəyimizi bəyan etdi.

**"Müsavat" fraksiyonunun təklifi**

Rəisi-vükəla Fətəli xan Xoyski həzrətlərinin bəyanatından sonra Məclisi-Məbusanın "Müsavat" fraksiyonu tərəfindən böylə bir təklif varid olur:

*"Hökumət rəisinin ingilis orduları komandanı və Britaniya Hökumətinin nümayəndəsi olan general Milnin Azərbaycan Hökumətini tanıması və İngiltərə Hökumətinin Qafqaziya millətlərinin kəndi başlarına yaşamaq haqlarını müdafiə edəcəyi və'dini bildirən bəyanını böyük bir məmnuniyyətlə dinləyərək məbusan rəyasətinə təklif edir ki, generalın övdətində [qayıdışında] Məclisin təşəkkürünü bizzat kəndilərinə bildirsin."*

Təklif bütün Məclisi-Məbusan tərəfindən alqışlarla qarşılanır.

**Növbədən xaric bəyanat**

**Məhəmməd Əmin Rəsulzadə** - növbətdən xaric söz alaraq çox qızğın və səmimi bir nitqlə deyir ki:

Şimdi Hökumət rəisinin ağzından İngiltərə komandanlığının Qafqaziyada əmniyyət və asayiş bərpası məqsədi təqib etdiyini sevinclə eşitdik. Bu sözlərin səmimi və doğru olduğuna inanırız. Bunu bizə Gürcüstanla Ermənistan arasındakı dava dəxi isbat etdi. Bir dərəcə Qarabağ məsələsi də bunu göstərdi. Fəqət, şimdi məni bu kürsiyi-xitabətdən danışmağa vadar edən bir fəqərədir [məsələdir] ki, o əmn [təhlükəsizlik] və asayiş istəyənlərin xəbərsizliyindən irəli gəlir. O da tökülən yeni qanlardır.

Vətəndaşlar! Naxçıvan və Şərur uyezdlərində və İrəvan quberniyasının sair yerlərində müsəlmanlar, türklər başında yenə təzədən top qumbaraları patlayır, müsəlmanlar min dürlü əzab və cəfalara düçar olurlar. Hələ erməni-gürcü konfransında əsgər tərxisi müzakirə edildikdə, ermənilər demişlər ki, bizim daxili düşmənlərimiz var, asilərimiz var, onları tabe və tədib [cəzalandırmaq] üçün əsgər lazımdır. Ona görə, qoşunumuzu buraxa bilməyəcəyiz. Məgər bu düşmənlər yazıq, torpaqlarından əl çəkmək istəməyən zavallı naxçıvanlılar imiş, məgər bu düşmənlər istiqlaliyyət istəyən, heç kəsə qul olmaq istəməyib müstəqil yaşamaq arzusunda olan müsəlmanlar imiş!

Əlbəttə, Hökumət bu xüsusda tədbirlər görməli, nahaq tökülən qanların önünü almağa çalışmalıdır.

**Dağıstan Parlamanını təbrik**

Vaxt gec olduğundan, növbədəki məsələlər təxir edilib iclasın qapanması haqqında bir təklif varid olur. Dağıstan Cümhuriyyəti Məclisi-Məbusanına təbrik teleqrafı həman gün çəkilmək şərti ilə təklif qəbula keçir. Dağıstan Parlamanına bu məzmunda bir teleqraf çəkilməsi təhti-qərara alınır:

"Dağıstanlı qardaşlarımız cümhuriyyətinin parlamanının güşadı [açılışı] münasibəti ilə Azərbaycan Parlamanı 25 yanvar tarixli iclasında böylə qərar almışdır: Səmimi-qəlbdən və məsruriyyəti-tammə [böyük bir sevinc] ilə qardaşlarımızı, Parlamanlarının güşadı münasibətilə təbrik edir, yeni dövlət üsulu-

nun paydar və qəvi [güclü] olmasında yalnız kəndilərinin deyil, bəlkə həmsayə [qonşu] tayfalarının da hüquqlarını daima müdafiədə bulunan qeyrətli dağıstanlıların səadətini görərək, Azərbaycan Parlamanı qardaşlarının bu qüvvə və ehtişamında kəndi ehtişamını dəxi mülahizə edir və binaənileyh [buna görə] var qüvvəsi ilə Şeyx Şamilin qeyrətli və layiq övladlarının qayələrinin əncama yetməyinə yardımçı olacaq, iki müttəhid qonşu cümhuriyyətlər əl-ələ verərək kəndi istiqlaliyyətlərini hər bir ədudan [düşməndən] müdafiəyə qadir olub, bütün ədədən kiçik, mənən böyük millətlər təqib etdikləri amal və qayəyə nail olmaları dəxi şübhədən xaricdir."

## TELEQRAF XƏBƏRLƏRİ

**Almaniyada**

"Berliner çaytunq" qəzetəsinin yazdığına nəzərən, Berlin Hökuməti kömür qıtlığından dolayı bütün teatroları qapamaq fikrindədir. Sinematoqraflar əmələ [fəhlə] sinfinə məxsus olduğundan, onlar bağlanmayacaqdır. Gecə saat 10-un yarısından sonra qəhvəxana, restoran və küçə işıqları hakəza [habelə] söndürüləcəkdir.

**İngiltərə flotunun tələfatı**

"Eskinc teleqraf" qəzetəsinin məlumatına nəzərən, bu Avropa müharibəsində İngiltərənin qərq olmuş hərbi paraxodlarının miqdarı bu günlərdə elan ediləcəkdir. Sualtı qayıqlarının ədədi isə 69-dur. Bunlardan 39-u düşmən tərəfindən qərq edilmiş, 3 ədədi minaya toxunub qərq olmuşdur. Yeddisi Baltik dənizində patlamışdır. 4-ü bədbəxt hadisədən tələf olmuş, bir ədədi saya əyləşmişdir, 5-i də qəzaya uğrayıb qərq olmuşdur. Bütün müharibə zamanında Almaniyanın 203 sualtı qayığı qərq olmuşdur. Almaniya sülh şəraitinə [şərtlərinə] görə Müttəfiqlərə 185 sualtı qayığı təslim etməlidir. Bu vaxta qədər 135-i təslim edilib, yerdə qalan 50 ədədi də veriləcəkdir.

**Rusların həbsi**

Berlində general Lyunik əmri üzərinə Berlində yaşayan hamı ruslar tövqif [saxlanmış] və həbs edilmişlər.

* Şeydemanın rəvayətinə görə, Almaniya Məclisi-Məbusanı fevralın 6-da açılacaqdır.

* London - Kloyd tərsanəsində olan mühəndis və əmələlər yanvarın 23-dən etibarən tətil edərək gündə 6 saat işləməyi tələb edirlər.

**Almaniyada aclıq**

Tiflis - Ən mötəbər rəvayətə görə, Almaniyada acından ölənlərin miqdarı yarım milyona varırmış və bu miqdar gündən-günə artmaqda imiş.

## SÜLH ƏTRAFINDA

**Cəmiyyəti-Əqvam**

Lloyd Corc Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsini müzakirə etmək üçün bu günlərdə məclisi açır. "Exo de Pari" qəzetəsinin pişguluğuna [qabaqcadan xəbər verməsinə] nəzərən məclisə

Vilson sədr intixab ediləcəkmiş [seçiləcəkmiş].

**Rusiya və Sülh Konfransı**

Məlum olduğu üzrə Müttəfiqlər Rusiyanın müxtəlif firqələrinə Sülh Konfransında iştirak üçün vəkillərini Mərmərə dənizində olan cəzirəyə [adaya] göndərmələrini təklif eyləmişdi. Rusiyadan bu barədə heç bir cavab yoxdur. "Peti Parizyen" qəzetəsi yazır ki, bu günlərdə Petroqrad Müttəfiqlər əlinə keçəcəkdir və böyləliklə bolşeviklər büsbütün məğlub olacaqlar. Qəzetə əlavə edir ki, hərgah danışıqlardan müvəffəqiyyət hasil olmasa, Vilson ciddi iqdamatda [təşəbbüsdə] bulunacaqdır.

* Fevralın 10-da ingilis kralı tərəfindən İngiltərə Parlamanı açılacaqdır.

* Əsl sülh şəraiti [şərtləri] imza edilənədək, bütün cəbhələrdə müəyyən miqdarda qoşun saxlanacaqdır.

## QƏZETƏLƏRDƏN

**Yeni Cümhuriyyətlər və Müttəfiqlər**

"V." qəzetəsinin yazdığına görə, general Rokker bəyan etmişdir ki, Müttəfiq dövlətlər Zaqafqaziyada əmələ gəlmiş olan yeni cümhuriyyətləri (Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistanı) qəbul və təsdiq edirlər və Müttəfiqlər Zaqafqaziyanın heç bir nöqtəsini işğal etmək niyyətində deyildirlər.

**İngiltərə və Fransada Gürcüstan nəfinə [xeyrinə] təbliğat**

Londondan Tiflisə göndərilmiş bir məktubdan Tiflisdə müntəşir [nəşr olunan] "Borba" qəzetəsi zeyldəki [aşağıdakı] fəqərəni [bölümü] iqtibas eyləyir:

"Gürcüstan istiqlaliyyətinin düşməni olan daşnaklarla sağ ruslar, Müttəfiq dövlətlər paytaxtlarında Gürcüstan əleyhinə qayət şiddətli təbliğatda bulunurlar. Məlum olduğu üzrə “Daşnaksutyun” firqəsinin Avropa mərkəzlərində xüsusi şöbələri vardır və onların agentləri yorulmaqsızın Avropa əfkari-ümumiyyəsini [ictimai fikrini] daşnakvari hazırlayırlar. Daşnaklar Qafqaziyada vaqe olan halları gizlədib özləri nəfinə əfkarı hazırlayırlar. Daşnaklar Avropaya qandırırlar ki, hərgah gürcülər xəyanət etməsəydilər, o zaman ermənilər nəinki türk-alman qoşunlarını dayandırardılar, hətta Kiçik Asiyanı belə işğal edərdilər. Gürcüstan düşmənlərinin bu cidd-cəhdlərinə rəğmən İngiltərə və Fransanın siyasi dairələrində Gürcüstan istiqlaliyyətinə hüsnnəzərlə baxırlar. Londonda İngilis-Gürcüstan cəmiyyəti təşkil edilmiş və lord Brays həmin cəmiyyətə sədr intixab edilmişdir [seçilmişdir].

Parisdə Gürcüstan İstiqlaliyyəti Komitəsi təşkil edilmişdir. Sair gürcü xeyirxahı olan fransızlardan başqa, məşhur fransız demokratı Albert Tomas bu komitəyə artıq müavinət edir. Bunlardan əlavə, Londonda gürcülər bir "İstixbarat [Xəbər] Bürosu" təşkil etmişdirlər və bu büro Qafqaziya barəsində Londona düzgün xəbərlər verməkdədir.

**İngiltərə və Qafqaziya**

Sevastopolda nəşr olunan "Utro yuqa" qəzetəsinin müxbiri ingilis komandanlığı nümayəndəsi ilə müsahibədə

bulunmuşdur. Müxbirin, "Nə üçün Krımda asudəliyi bərpa etməyə ingilis komandanlığı iqdamatda bulunmayır [təşəbbüs göstərmir]?" sualına nümayəndə böylə cavab vermişdir:

*"Biz Krımda müvəqqəti surətdə dayanmışıq. Tez bir zamanda Krım ilə Ukrayna fransız qitəatı [hərbi hissələri] tərəfindən işğal ediləcəkdir. Krımı işğal etmək üçün Müttəfiqlər komandanlığı 50 min, ukraynanı işğal üçün 200 min qoşun göndərəcəkdirlər.*

*Fransızlar Krıma gəldikdən sonra İngiltərə qitəatı Qafqaziyaya keçəcəklər. İngilislər Qafqaziyanı özlərinə işğal edilmiş yerlərin bir hissəsi hesab edirlər. Ona görə də biz buraya müvəqqəti surətdə gəldiyimizdən, burada ciddi iqdamatda olmayıb, onu fransızlara mühəvvəl edəcəyik [təhvil verəcəyik]."*

**Vladiqafqazda**

Vladiqafqazdan Tiflisə gəlmiş olanların rəvayətini eşidənlər heyrətə düşürlər. Bolşeviklərin əhaliyə etdikləri cövr-cəfadan sərf-nəzər [başqa], Vladiqafqaz bu saat bir mərəz ocağı olmuşdur. Şəhərdə hər cür xəstəlik davam edir. Bu xəstəliyin dərəcəsini gündə yüz nəfərin dəfn edildiyi ilə bilmək olar. Ölənlərin çoxu Qırmızı qoşun nəfəratındandır [əsgərlərindəndir]. Buralarda bolşeviklərə, qələbə çalmaq çox bahaya mal olmuşdur. Yalnız Vladiqafqaz işğalında bolşeviklərdən 15 min nəfər yaralı, ölən və xəstələnən olmuşdur. Bütün xəstəxanalar bolşeviklərlə doldurulmuşdur. Bolşeviklər şəhərin müəzzəm [böyük] binalarını zəbt edib xəstəxanaya çevirmişlər. Xəstəxanalardan naxoşluq küçələrə keçmiş, şəhərdə yatalağa qarşı əlac etmək mümkün deyil. Zira şəhərdə dərman yoxdur. Bolşeviklər şəhərdə olan bir çox xanımanları şəfqət bacılığına təyin eyləmişlərdir. Qəbir qazmaq üçün bütün sərvətdarları [varlıları] cəlb etmişlərdir.

**Bolşeviklərin məğlubiyyəti**

Alınmış olan doğru məlumata nəzərən general Lyaxovun Könüllü dəstələri tərəfindən Qafqaziyada vaqe bütün Mədən Suları işğal edilmişdir. Digər cəbhədə isə Şimali Qafqazda iş görən bolşeviklərin ən mühüm istinadgahı olan Svyatoy Krest denilən məhəl [yer] işğal edilmişdir.

## BAKI XƏBƏRLƏRİ

**Qəzavət [Qazılıq] tərəfindən**

Bakı şəhərində və qəryələrində [kəndlərində] olan müsəddəq [rəsmi] prixod mollalarına elam edirəm [bildirirəm] ki, təvəllüd barəsində, vəfat xüsusunda şəhadətnamələr verdikdə metrikdən [yaş kağızından] verməlidirlər. Təvəllüd və vəfat hansı ayda və hansı gündə vaqe olduğunu qeyd etməlidirlər. Siyahıyi-ümumiyyədən verilmiş şəhadətnamə sahibləri metrikdə mövcud olmamışsalar, həman ruhani saxtakar və müqəssir hesab olunacaqdır və amma metrikdə səbt [qeyd] olmayan şəxsləri siyahiyi-ümumiyyədən vermək olar. Bu şərtlə şəhadətnamədə qeyd etsinlər ki, əgər bu şəxs metrikdə səbt olmuş olsa, cavabdehəndəliyi [cavabdehliyi] öhdəmə götürürəm.

*Bakı qazısı:*
*Axund Əbdürrəhim Hadizadə*

**İrəvan müsəlmanları və Ermənistan**

Bakıda mövcud İrəvan Quberniyası Müsəlmanları Həmvilayətləri Cəmiyyəti Balkan və Qafqaziya İngiltərə qoşunları baş komandanı general Milnə bir ərzihal verib rica etmişlər ki, İrəvan quberniyasının müsəlmanlarla məskun hissələrinə erməni qoşunlarının soxulması önü alınsın və bu vaxtadək zorla tutulan hissələr həman qoşunlar tərəfindən təxliyə edilib Azərbaycana mülhəq edilsin [birləşdirilsin]. Zira ora müsəlmanları özlərini azərbaycanlı və vətənlərini isə Azərbaycanın ayrılmaz bir hissəsi ədd [hesab] edirlər.

**Bələdiyyə İdarəsində**

Fabriçni inspektor [Fabrik müfəttişi] Bələdiyyə rəisinə müraciətən məlum etmişdir ki, Binəqədi dairəsi fəhlələri ona müraciətən Binəqədi su yolunun bağlanmasını xəbər vermişlər. Bu isə fəhlələri çənlərdən su işlətməyə məcbur edir. Hal-hazırda Binəqədi dairəsində 600-dək fəhlə yaşamaqdadır. Rica edilir ki, Binəqədi mədən dairəsinin su yolu bağlanması barəsində lazımi məlumatı verəsiz və təcdiddən [bərpadan] ötrü nə lazım olduğunu bildirəsiz.

**"Müsavat" firqəsində**

Aldığımız məlumata görə, Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin təbliğat-təşkilat şöbəsi papaqçı, çəkməçi, daşkəsən və qeyri bu kimi sənətçiləri ayrı-ayrı toplayıb mütəşəkkil etmək üçün bir layihə hazırlayır. Bu günlərdə işə şüru ediləcəkdir [başlanacaqdır].

* Yanvarın 21-də gecə saat 11 radələrində Baba Aydəmir oğlu Bağırov Sabunçu mövqifində [stansiyasında] qatardan düşən zaman dəmiryol qatarı altına düşmüşdür. Bağırov iki ayağından yaralanıb Sovet Syezd xəstəxanasına göndərilmişdir.

* Balaxanı Realnı məktəbində türk əlifba şöbəsinə şagirdlər qəbul olunmaqdadır.

**ƏRZAQ İŞLƏRİ**

* Ərzaq nazirinin baş vəkili Nikolay Nikolayeviç Şuljenko Ərzaq Nəzarətinin hamı vəkillərinin işlərini təftiş etməkdən ötrü göndərilir.

* Şəki ilə Beyləqamı arasındakı şose yolunda poçta saxlayan Kərim Əsgərov Ərzaq Nəzarətinə bir ərizə verib Zaqatal nahiyəsindən poçta atları üçün arpa və saman almağa icazə verilməsini xahiş etmişdir. Ərzaq Nəzarəti məzkur [adı çəkilən] Əsgərova Zaqatal nahiyəsində min put arpa və 50 araba saman alıb Şəki şəhərinə gətirməyə icazə vermişdir.

* İvan Osipoviç Kotovski Ərzaq Nəzarəti tərəfindən Şimali Qafqaziya, Stavropol, Qara dəniz sahili quberniyalarına və Kuban oblastına göndərilir ki, orada olan ərzaq təşkilatları, kooperativlər və xüsusi adamlarla Bakı ehtiyacatından [ehtiyaclarından] ötrü ərzaq şeyləri almaq və dəyişdirmək işləri haqqında müzakiratda bulunsun. Ərzaq Nəzarəti Kotovskinin məzkur yerlərə göndərilməsini Gürcüstan Hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsinə və İngiltərə Baş ərkanına [Baş qərargahına] xəbər verib, bu barədə ona müavinət

[kömək] göstərilməsi xahişində bulunmuşdur.

* Ərzaq Nəzarəti, Dəmiryol Nəzarətinə müraciət edib, Bakı Mərkəzi Ev Komitəsinin iaşə məntəqələri ilə bir para xəstəxanalar ehtiyacatı üçün ət verən İsa bəy Sadiqbəyova Gəncədən Bakıya ət və qaramal gətirmək üçün hər ay 6 vaqon verilməsini xahiş etmişdir.

* M. H. Rafayeviç nam [adlı] bir şəxs Ərzaq Nəzarəti ilə əqd etdiyi [imzaladığı] müqavilənaməyə görə borclu olmuşdur ki, Odessa, Xarkov və Yekaterinoslav şəhərlərindən Bakıya Ərzaq Nəzarəti adına ayaqqabı, dəri və qeyri-dəri emalatı gətirsin. Buna görə Ərzaq Nəzarəti məzkur [adı çəkilən] Rafayeviçə bir vəsiqə verib Gürcüstan və Ukrayna cümhuriyyətlərindən məzkura müavinət göstərilməsini xahiş etmişdir.

* Ərzaq Nəzarəti yazıb Dəmiryol Nəzarətinə xəbər vermişdir ki, tərifə qiymətlərinə baxmaqdan ötrü vaqe olacaq müşavirəyə Ərzaq Nəzarəti tərəfindən nazir vəkili Vladimir Vasilyeviç Smirnov göndərilir.

## FƏHLƏ KONQRESİ

İşbu kanuni-saninin [yanvarın] 26-da Fəhlə Klubu salonunda Fəhlə Konqresi iniqad etmişdi [baş tutmuşdu]. İclas saat 11 radələrində başlanır. Mandatlar təhqiqatı ixtilaf törədir. Mandatları təhqiq etmək məsələsi barəsində heyəti-rüəsa [rəyasət heyəti] tərəfindən təyin edilmiş zat [şəxs] məlumat verərək müntəxəb [seçilmiş] təşkilatın möhrü, səbti [qeydi] mandatlarda vacib və lazımdır, deyir. Mandatların bir çoxu, xüsusən müsəlman nümayəndələri mandatları möhürdən xali [möhürsüz] olduğu üçün nümayəndələr miyanında [arasında] səs-küy qalxır. Orada-burada mübahisələr davam edir. Bir çoxları qəbul edilməsələr, konqreni bərhəm edəcəklərini [pozacaqlarını] çığıra-bağıra öyləyirlər. Bir çoxları da möhürün vücubu [vacibliyi] barəsində heyəti-rüəsanın türk qəzetələrində elan verməməsini dəstaviz [bəhanə] edərək bir "İskra" qəzetəsində bu barədə yazılmasını kafiədd [hesab] etməməyə, özlərinin konqredə qanunən iştirak etməyə ixtiyarları olduğunu sübut edirlər.

Mandatlardan 12 ədədi ev komitələri möhürləri ilə səbt və təsdiq edilmişdir. Bu barədə danışıq və mübahisə olduqca uzun çəkir. Axirüləmr [nəhayət] qət edilir ki, bu dəfəlik bunlar konqreyə buraxılsınlar. Gələcək dəfə isə buraxılmayacaqları elam edilir [bildirilir].

Konqre sədri Çurayev mandatlar təhqiqindən sonra konqrede 523 nəfər qət edici səsə malik əza [üzv] iştirakını elamla, qanuni olaraq məclisi güşad edir [açır]. Ruznameyi-müzakirat [müzakirə gündəliyi] bu qərarla elam [elan] edilir:

1) Məvaciblər haqqında;

2) Dərmanxanalar xidmətçiləri haqqında;

3) Tağıyev fabrikası əhvalı haqqında.

Çurayev elam edir ki, fəhlələr şurası və duma məsələsi gələcək iclaslarda müzakirə ediləcəkdir. Konqre komisyonu tərəfindən Roxlin məruzə oxuyur. Özlərinin neftçilər və mədən sahibləri ilə etdikləri müşavirələri haqqında məlumat verir.

Bu sırada İngiltərə komandanlığı nümayəndəsi ilə Məsai Nəzarəti [Əmək Nazirliyi] nümayəndəsi içəri daxil olurlar. Roxlin izin alır ki, məruzəyə davam etmək üçün məsələ barəsində hökumət nümayəndələrindən bir neçə suala cavab almalıdır. Binaənileyh [ona görə] bir neçə dəqiqə onlarla danışmalıdır. Roxlin və komisyon əzası [üzvləri], hökumət nümayəndələri ilə başqa odaya gedirlər.

Vaxtı bica keçirməmək üçün ruznameyi-müzakiratın 2-ci maddəsi – dərmanxana xidmətçiləri tətilinə – keçirlər. Bu barədə Lyaxovski məlumat verir. Uzun-uzadı mübahisə olur. Tənəffüs elan edilir. Tənəffüsdən sonra Roxlin öz məruzəsinə davam edərək, Məsai Nəzarəti tərəfindən verilən təklifi maddəbəmaddə şərh edir. Sabiq müştərək müqavilənamə [kollektiv müqavilə] bir ayadək öz qüvvəsində qalacaqdır. Fəqət bir maddəsi, – fəhlələri əzl etmək [qovmaq] məsələsi – dəyişməlidir. Mədənçilərə, evli və evsizlərə ayda 360 rublə artıq zəhmət haqqı verməlidirlər. Bir ayadək yeni müştərək müqavilənamə tərtib edilməlidir. Roxlin fəhlələrin qələbə çalmasını bəyan edir.

Roxlin nitqinin axırında bəyan edir ki, Məsai Nəzarəti işbu məsələdə fəhlələr tərəfdarı olduğunu elam edir.

Komisyon tərəfindən təklif edilir ki, təkliflər qəbul edilsin. Məruzəni Əbilov tərcümə ilə bərabər gözəl surətdə şərh də edir.

Bundan sonra məruzəçiyə suallar verilir. Roxlin suallara cavab verir. Müzakirat qət edilərək [kəsilərək] təkliflər elam edilir. Komisyonun qətnaməsi:

1) Qüvvə müqayisəsi, Bakı füqarayi-kasibəsi və mədənçiləri əhvalından dolayı komisyon təklif edir ki, təklif qəbul edilsin.

2) Komisyon müzakiratda davam edəcəkdir.

3) Müştərək müqavilənamə təcdidində [yenilənməsində] komisyon lazımi tədabir ittixazıyla [tədbirlər görməklə] müzakiratında davam edəcəkdir.

4) Port dairəsi fəhlələri və bəhriyyun [matroslar] öz işlərini qələbəyədək aparmalıdırlar.

Saqo [Saakyan] təklif edir ki, İngiltərə komandanlığına yaddaşt [müraciət] etməlidir ki, buraya qoşun gətirmək əvəzində, ərzaq gətirilsə bir az da yaxşı olacaqdır.

Brunin təklif edir ki, ictimai təşkilata və istehlak cəmiyyətlərinə Mərkəzi Ev Komitəsi və qeyrəyə mal mübadiləsi üçün mal və izin verilsin. Halbuki, böylə təşkilata verilməyib, möhtəkirlər bundan istifadə edərək Tiflis və qeyri yerərdə cövhər və neft satırlar.

Sako təklif edir ki, fəhlələrin etirazı və başqa işlərinə baxmaq üçün başqa mədəni məmləkətlərdə olduğu kimi mə’dən məhkəmələri təşkil edilsin.

Slepçenko məlumat verir ki, Məsai Nəzarəti cənbində [nəzdində] 5 nəfər fəhlələrdən, 5 nəfər mədənçilərdən, 1 nəfər də Məsai Nəzarəti nümayəndəsindən mürəkkəb [ibarət] bir komisyon təşkilinə Məsai Nəzarəti öz təklifində müsaidə vermişdir. İşbu komisyon Sako deyən mə’dən məhkəməsidir.

Tağıyev fabrikası haqqında Çurayev bəyanat verir. Orada törəyən başsızlıqları təsvir edir.

Abbasqulu Kazımzadə təklif edir ki,

əhvalı məhəllində [yerində] təhqiq etmək üçün Təhqiqat Komisyonu intixab edilsin [seçilsin].

Çurayev təklif edir ki, İngiltərə komandanlığına təklif edilsin ki, üç günədək böylə fəlakətlərin qarşısı alınmaqla bərabər, qulluqdan çıxarılanlar geri qəbul olunsunlar. Üç günədək oradakı polis adlanan banda oradan çıxarılsın. (?)

İclas saat 7-də qapanır.

## AZƏRBAYCANDA

**Şərəfə, Lənkəran uyezdi**

Xüsusi müxbirimizdən:

Dekabr ayının 8-də Aslan Məstan oğlu Şərəfə kəndindən bazara gedərkən yolda xaxollara rast gəlib. At döşündə Xırmandalı kəndinə aparıb onu öldürmək istəyirlərmiş. Aslan isə Xırmandalı camaatından 2 min manat pul alıb onlara verib özünü xilas etdirir.

## DAĞISTAN CÜMHURİYYƏTİNDƏ

Gürcüstan Hökuməti nəzdində olan Dağıstan Hökumətinin siyasi nümayəndəsi gürcü Xariciyyə naziri Gegeçkoriyə xəbər vermişdir ki, Dağıstan Hökumətinin Müttəfiq şurası axırıncı dövri-ictimada [sessiyada] Çermoyev hökumətinin istefasını qəbul edib, təzə kabinə təşkilini Kotsevə həvalə etmişdir. Kabinə bu zeyldəki [aşağıdakı] şəxslərdən intixab edilmişdir [seçilmişdir]: Nazirlər Şurası sədri Pişemaxo Kotsev, Hərbiyyə naziri N[uh]-B[əy] Tarkovski, Xariciyyə naziri Heydər Bammatov, Daxiliyyə naziri R[əşid] Z[abit oğlu] Qaplanov, Maliyyə naziri Vassan-G[əray] Cabaqiyev, Ticarət və Sənaət naziri B[ahadır bəy] Mallaçı-xan, Dəmiryol naziri İ[brahim] b[əy] Heydərov, Maarif naziri A[dilxan bəy oğlu] M[əmməd] Şahsuvarov, Ziraət və Dövləti Əmlak naziri Butayev, Dövlət Kontrolu, Ədliyyə, Məsai və Ümuri-Xeyriyyə [Sosial Təminat] nazirlərinin yeri Tersk oblast kazakları ilə hasil olan sazişə görə kazaklara verilmişdirsə də, hələliyə boşdur.

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bəvl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bəvl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Petroqraddan gəlmiş diş həkimi M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor**
**Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Doktor**
**İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Hökumət mətbəəsi**

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

*T-13*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Siyasi vəziyyətimiz**

səh. 459. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Faiq əfəndinin həbsi**

səh. 459. "...meydana gətirməkdə iştirakla...": qəzetdə "meydana gətirməklə iştirakla" kimi getmişdir.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 462. "...xəstəliyin tamam olmasa da, azalması...": qəzetdə "xəstəliyin tamam olmasından azalması..." kimi getmişdir.

səh. 463. "...qanunnamələrin vəz'ini...": qəzetdə "vəz'ini" yerinə "vəziyyətini" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 467. "Yeddisi Baltk dənizində...": qəzetdə "yeddisi" yerinə "yeddinci" getmişdir.

**Qəzetələrdən**

səh. 469. "...bir çox xanımları...": qəzetdə "xanımları" yerinə "xanımanları" getmişdir. Burada söhbət varlı ailələrin qadınlarından gedir.

"Svyatoy Krest": Rusiyanın Stavropol diyarında Budyonnovsk şəhəri.

**Bakı xəbərləri**

səh. 469. "prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

"...metrikdə mövcud olmamışsalar...": qəzetdə "olmamışsalar" yerinə "olmuşsalar" getmişdir.

**Fəhlə Konqresi**

səh. 472. "Qüvvə müqayisəsi, Bakı füqarayi-kasibəsi və mədənçiləri əhvalından dolayı komisyon təklif edir ki, təklif qəbul edilsin.": Bu maddə belə başa düşülməlidir: "Komissiya, Bakı proletariatı ilə sənayeçilər arasındakı real güc nisbətini nəzərə alaraq, təklifin qəbul edilməsini qərara alır."